**UOT:** 159.922.7
**KBT:** 88.8

# Cinsi zorakılığa məruz qalmış yetkinlik yaşına çatmayanların məhkəmə-psixoloji ekspertizası

**Narın Əbilova***

**Abstrakt.** Məqalədə cinsi cinayətlər üzrə məhkəmə-psixoloji ekspertizasının nəzəri və metodoloji məsələləri tədqiq edilmişdir. "Xarakteri anlama" və "mənanı anlama" kateqoriyaları, zərərçəkmişin müqavimət göstərmək qabiliyyəti və köməksiz vəziyyət haqqında elmi ədədbiyyatların təhlili aparılmışdır. Həmçinin baş vermiş cinsi cinayət hadisəsi ilə bağlı məhkəmə-psixoloji ekspertizasının keçirilməsi ilə bağlı nümunə göstərilimişdir.

**Açar sözlər:** yetkinlik yaşına çatmayan, cinsi zorakılıq, zərərçəkmiş, məhkəmə-psixoloji ekspertizası

## 1.Giriş

Məhkəmə-psixoloji ekspertizasının növləri arasında yetkinlik yaşına çatmayanların ekspertizası xüsusi bir yer tutur. Bu zaman yetkinlik yaşına çatmayanların qavrayışının, mühakimə qabiliyyətinin, yaddaşının, həmçinin psixi xassələrinin, fərdi-psixoloji xüsusiyyətlərinin öyrənilməsi məqsədilə məhkəmə-psixoloji ekspertizası həyata keçirilir.

Bildiyimiz kimi, şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlərin zorlama, seksual xarakterli zorakılıq hərəkətləri, seksual xarakterli hərəkətlərə məcbur etmə, 16 yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə, əxlaqsız hərəkətlər kimi növləri fərqləndirilir. Cinsi cinayətlər üzrə məhkəmə-psixoloji ekspertizası zamanı həm zərərçəkmişin, həm də təqsirləndirilən şəxsin şəxsiyyəti, onların qarşılıqlı münasibətləri və hadisə şəraitindəki davranışları tədqiq edilir. Bu zaman zərərçəkmiş şəxslər adətən yetkinlik yaşına çatmamış qız, oğlan və ya müxtəlif yaşda olan qadınlar olur.

* Bakı Dövlət Universitetinin "Psixologiya kafedrası"nın doktorantı; Bakı, Azərbaycan
E-mail: abilovanarin777@gmail.com
https://orcid.org/0000-0002-5997-3814
**Məqaləyə istinad:** Əbilova, N. [2022]. Cinsi zorakılığa məruz qalmış yetkinlik yaşına çatmayanların məhkəmə-psixoloji ekspertizası. *"Metafizika" jurnalı, 5*(2), səh.62-73.

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 31.03.2022*
*Təkrar işlənməyə göndərilmişdir: 11.04.2022*
*Çapa qəbul edilmişdir: 03.06.2022*

Baş vermiş cinsi cinayət hadisəsi zamanı məhkəmə-istintaq orqanları tərəfindən iş üzrə konkret nəticə əldə etmək mümkün olmadıqda məhkəmə-psixoloji ekspertizası təyin olunur və yetkinlik yaşına çatmayan şəxsin özünün və ona qarşı edilmiş hərəkətlərin mahiyyətini dərk etmək qabiliyyətini müəyyən etmək üçün məhkəmə-psixoloji ekspertizanın təyini haqqındakı qərarda ekspert-psixoloq qarşısında aşağıdakı məzmunda suallar qoyulur:

1. Zərərçəkmiş şəxs hansı fərdi-psixi xüsusiyyətlərə malikdir?
2. Zərərçəkmiş şəxsin əsas fərdi-psixi xüsusiyyətləri hansılardır və bu xüsusiyyətlər ona qarşı hüquqazidd hərəkətlər edilərkən necə təzahür edir?
3. Zərərçəkmiş şəxs yaş xüsusiyyətləri və intellektual inkişafı nəzərə alınmaqla, onunla edilən hərəkətlərin xarakter və mənasını anlaya bilərmi?
4. Zərərçəkmiş şəxs ona qarşı edilən hüquqazidd hərəkətlərdən əvvəl, baş vermiş hadisə zamanı və hadisədən sonra hansı psixi-emosional halda olmuşdur, həmin psixi-emosional halların dinamikası necədir?
5. Zərərçəkmiş şəxsin özünün psixi yaş və fərdi-psixi xüsusiyyətlərindən, intellektual inkişafi və emosional halından asılı olaraq, müqavimət göstərmək qabiliyyətinə malik olub?
6. Zərərçəkmiş şəxsin psixi vəziyyəti təqsirləndirilənin ona qarşı etdiyi hərəkətlərin nəticəsində yarana bilərdimi?
7. Zərərçəkmiş şəxsin əqli mükişafında psixi xəstəliyi ilə əlaqədar olmayan gerilik əlamətləri varmı?
8. Zərərçəkmiş şəxsin psixi inkişafını nəzərə alaraq, onun yaranmış şəraitin mahiyyətini tam dərk etmək və davranışının mümkün nəticələrini görmək qabiliyyəti müəyyən edilsin.

Qeyd etmək lazımdır ki, ekspertiza qarşısında qoyulan suallar konkret olmalı, mücərrəd xarakter daşımamalı və ekspertizanın birbaşa səlahiyyətinə aid olmalıdır.

**2.“Xarakteri anlama” və “mənanı anlama” kateqoriyaları**

Məhkəmə-psixoloji ekspertizası ilə bağlı ədəbiyyatların təhlili göstərir ki, tədqiqatçılar cinsi cinayətlər zamanı *“xarakteri anlama”* kateqoriyasını, “mənanı anlama” kateqoriyasından fərqləndirirlər. Cinsi cinayətlər zamanı zərərçəkmişin psixi inkişafından asılı olaraq, cinsi cinayətin məzmununa görə, aşağıdakı vəziyyətlər ayırd edilir:

a) zərərçəkmişin təqsirləndirilən şəxs tərəfindən edilən hərəkətlərin həm xarakterini, həm də mənasını anlamaması,
b) zərərçəkmişin təqsirləndirilən şəxs tərəfindən edilən hərəkətlərin xarakteri anlaması, lakin mənasını anlamaması,

c) zərərçəkmişin təqsirləndirilən şəxsin hərəkətlərinin həm xarakterini, həm də mənasını anlaması.

Zərərçəkmişin təqsirləndirilən şəxs tərəfindən edilən hərəkətlərin xarakter və mənasını dərk etmək qabiliyyəti- zərərçəkmişin elə psixi inkişaf səviyyəsinə çatmasını nəzərdə tutur ki, bu inkişaf səviyyəsi ona öz biliklərinə və təcrübəsinə əsaslanaraq vaxtında və düzgün şəkildə təqsirləndirilən şəxsin həqiqi niyyətini düzgün açmaq, situasiyanın kriminallığını qiymətləndirmək, baş verəcək hadisənin mənəvi-əxlaqi, etik mahiyyətini və mümkün nəticələrini qiymətləndirməyi nəzərdə tutur.

Əməlin xarakterini dərk etmək- zərərçəkmişin cinsi məsələlərdən məlumatlı olmasına əsaslanaraq bu əməlin məzmun tərəfini düzgün dərk etməyi, təqsirləndirilən şəxsin davranışında cinsi məzmunlu elementi görmək bacarığına əsaslanır.

Əməlin mənasının dərk edilməsi- təqsirləndirilən şəxsin həqiqi niyyətini başa düşə bilmək, bu zaman baş vermiş hadisənin inkişaf perspektivini qiymətləndirmək, mümkün nəticələri görmək, təqsirləndirilən şəxsin və özünün davranışını əxlaq normaları baxımından qiymətləndirməyi nəzərdə tutur.

Cinsi cinayətlər zamanı zərərçəkmişin davranışının əsas müəyyənedici amilini onun psixoseksual inkişaf səviyyəsi təşkil edir. XX əsrin əvvəllərində Z.Freyd fərdin psixoseksual inkişafın oral, anal, fallik və latent dövrlərini ayırmışdır.

Fərdin ontogenezində 7 yaşına qədər olan dövrü psixoseksual inkişafın I mərhələsinə müvafiq gəlir. Bu müddət ərzində oğlan və qızlarda cinsi mənlik şüuru formalaşmağa başlayır. 2 yaşa yaxın uşaq artıq öz cinsinin adını bilir. 3 yaşına yaxın uşaqlar isə ətrafdakı adamların cinsini artıq fərqləndirir. Lakin uşaq “oğlan” və “qız” sözlərindən geniş istifadə etsə də, o, hələ bu anlayışlarla hər hansı davranış formasını fərqləndirə bilmir. Uşaqlar hələ öz rolu ilə tanış olmadığından, ünsiyyət prosesində gözlənilən davranışı anlamaqda çətinlik çəkirlər. Fərdin 4 yaşa qədərki dövrü cinsi mənsubiyyətin formalaşması üçün senzitiv dövr hesab olunur. Beləliklə 3-4 yaşında olan uşaqlar xarici cinsi əlamətlərə görə ətrafdakı insanları fərqləndirə bilirlər, həmçinin səsin tembri, geyim, bədən quruluşu, xarici görünüşə görə qadını kişidən fərqləndirirlər. Bu yaşda olan azyaşlılar onlara qarşı edilən əməlin xarakter və mənasını dərk etmir. Cinayət hadisəsi zamanı baş verənlər hadisələri oyun və ya cəza kimi qiymətləndirirlər.

Fərdin ontogenezində 7 yaşından 13 yaşa qədərki dövr isə psixoseksual inkişafın II dövrü adlanır. Araşdırmalar göstərir ki, kiçik yeniyetməlik yaşını əhatə edən bu mərhələdə daha çox cinsi zorakılıq hallarına təsadüf olunur. Bu

zaman oğlan və qızlarda ikinci cinsi əlamətlər formalaşır, kişi və qadına məxsus əlamətlərə yiyələnməyə başlayırlar, daha doğrusu fərd kişi və ya qadının bütün xarakterik fərqləndirici əlamətlərinə yiyələnərək, cinsi cəhətdən yetkinləşir, somatik cins təşəkkül edir. Həmçinin onlarda cins-rol davranışın stereotipləri formalaşır, cinsi münasibətlər haqqında müəyyən məlumata malik olurlar. Bu yaşda olan uşaqlar cinayət hadisəsi zamanı təqsirləndirilən şəxsin əməlinin xarakterini dərk etsələr də mənasını tam dərk edə bilmirlər. Adətən bu yaş qrupuna aid olan azyaşlı və yetkinlik yaşına çatmayanların baş vermiş cinayət hadisəsi ilə bağlı məhkəmə-psixoloji ekspertizası zamanı 3 hal müəyyən edilir:

**I**-zərərçəkmiş onunla edilən əməlin xarakter və mənasını dərk etmir;

**II**-xarakterini dərk edir, mənasını dərk etmir;

**III**-həm xarakterini, həm də mənasını dərk edir.

İlk iki hal zərərşəkmişin müqavimət göstərmək qabiliyətinə malik olmadığını göstərir.

III halda isə məsələ xüsusi tədqiq edilməli və səbəb aydınlaşdırılmalıdır.

14-16 yaşlı yetkinlik yaşına çatmayanlar isə psixoseksual inkişafın III mərhələsinə müvafiq gəlir. Onlar əməlin həm xarakterini, həm də mənasını dərk etmək qabiliyyətinə malikdir.

Belə hallarda ekspert psixoloji tədqiqat zamanı anamnestik məlumatlar əsasında ekspertizaya yönləndirilmiş zərərşəkmişin psixi inkişafının dinamikası, xarakter xüsusiyyətləri öyrənilməli, əqli inkişafı, maraq dairəsi, davranışının sabit motivləri, cinayət işinin materiallarının təhlili əsasında zərərşəkmişin hadisə zamanı davranışının retrospektiv təhlili verilməli, əlavə olaraq cinayətdən sonra baş verənlərə emosional reaksiyasının dərinliyi müəyyənləşdirilməlidir.

Cinayət törədilən ərəfədə və cinayət törədilən an zərərçəkmişin somatik xəstəliklərdən əziyyət çəkməsi də onun fəal şəkildə müqavimət göstərmək imkanını istisna edir. Eyni zamanda zərərçəkmişin müqavimət göstərmək qabiliyyətinin onun təqsirləndirilən şəxsin davranışının, hərəkətlərinin əsl mahiyyətini hadisənin hansı mərhələsində duymasından, anlamasından asılıdır. Belə ki, bir çox hallarda yetkinlik yaşına çatmayanlar psixi cəhətdən sağlam olmasına baxmayaraq cinayət hadisəsi baş verən zaman nə üçün müqavimət göstərməməsi və ya hadisədən sonra cinayətin istintaqı zamanı baş verənlər haqqında məlumat verərkən heç bir emosional reaksiya təzahür etdirməməsi istintaqda şübhə doğurur və bəzən belə ehtimal olunur ki, zərərçəkmiş şəxs cinayət hadisəsinin baş verməsində könüllü iştirak etmişdir.

A.N.İqnatov öz elmi məqalələrində köməksiz vəziyyəti tədqiq edərək onun formalarının ən dolğun təsvirini vermişdir:

1. zərərçəkmişin baş verən hadisələri dərk edə bilməməsi;
2. zərərçəkmişin vəziyyəti və baş verənlərin sosial əhəmiyyətini düzgün qiymətləndirə bilməməsi;
3. zərərçəkmişin öz iradəsini ifadə etmək imkanının olmaması;
4. fiziki vəziyyətinə görə müqavimət göstərə bilməmək (fiziki qüsurların, somatik xəstəliklərin olması, alkoqol intoksikasiyası və s.).

A.N.İqnatov qeyd edir ki, baş vermiş hadisələrin xarakter və mənasını dərk edilməsi beynin mürəkkəb analitik və sintetik fəaliyyəti, konkret situasiyada alınan məlumatların mövcud olan bilik və idealarla müqayisəsi nəticəsində əldə edilir. Anlamanın keyfiyyəti və dərinliyi insanın idrak fəaliyyətini təşkil edən bütün proseslər və əməliyyatlar kompleksinin xüsusiyyətlərindən, bilik fondundan, hadisələrin qavranılması zamanı emosional vəziyyətindən və s. asılıdır.

Psixi cəhətdən sağlam zərərçəkmişlərin onlara qarşı edilmiş əməllərin xarakter və mənasını dərk edə bilməməsinə səbəb olan əsas amillərdən biri kimi onların yaşının az olmasını göstərirlər.

Mudyugin və Yu.A.Şubin qeyd edirlər ki, 7-8 yaşından kiçik zərərçəkmişlərin onlarla edilən hərəkətlərin xarakter və mənasını dərk edə bilməməsi heç vaxt şübhə doğurmur, lakin artıq 9-12 yaşlı zərərçəkmişlərlə münasibətdə bu məsələyə xüsusi aydınlıq gətirilməlidir. 12 yaşdan yuxarı zərərçəkmişlərin iş üçün vacib olan halları dərk etmə səviyyəsini müəyyən etmək daha çətindir. Ona görə də belə bir fikirlə razılaşmaq lazımdır ki, zərərçəkmişin baş vermiş hadisəni düzgün dərk etməsi üçün təkcə yaşını deyil, həm də zərərçəkmişin tərbiyə olunduğu mühiti də nəzərə almaq lazımdır. Həmçinin onun cinsi əlaqənin mahiyyəti və onun haqqında xəbərdar olmasının dərəcəsi və s. müəyyən edilməlidir. Hətta yetkinlik yaşına çatmayan zərərçəkmişlərin cinsi əlaqəyə girməyə razılığı olsa belə avtomatik olaraq onların əməlin xarakter və mənasını dərk etmək məsələsini aradan qaldırmır, çünki bu dərk etmə tam şəkildə deyil təhrif olunmuş formada ola bilər. Bununla birlikdə, zərərçəkmişin onunla edilən hərəkətlərin xarakter və mənasını ən tam şəkildə dərk etmək qabiliyyəti təqsirləndirilənə müqavimət göstərmək qabiliyyətini göstərmir. Bu mülahizələrin hər biri, şübhəsiz ki, bir-biri ilə bağlıdır.

Belə hallarda ekspert psixoloji tədqiqat zamanı subyektin zehni inkişaf dinamikasının (təhlil, anamnestik məlumat əsasında), onun xarakter xüsusiyyətlərinin, psixi inkişafın vəziyyətinin, maraq dairəsinin, motivlərinin, sabit davranış xüsusiyyətlərinin öyrənilməsini əhatə etməlidir. Cinsi cinayət

hadisəsi zamanı zərərçəkmişin davranışının retrospektiv psixoloji təhlili mərkəzi yer tutur.

**3.Məhkəmə-psixoloji ekspertizası keçirilən zaman istifadə olunan metodikalar**

Cinsi cinayətlər üzrə məhkəmə-psixoloji ekspertizasının keçirilməsində psixodiaqnostik tədqiqatın aparılması məhkəmə-istintaq orqanlarının qoyduğu sualların məzmunu ilə eynilik təşkil etməlidir. Bu zaman ekspert-psixoloq cinsi cinayətlər üzrə məhkəmə-psixoloji ekspertizası keçirərkən müxtəlif metodlardan istifadə edə bilər. İlk növbədə “psixoloji söhbət-müsahibə” metodu ekspertiza zamanı ən unikal metoddur. Çünki cinayət hadisəsi zamanı zərərçəkmiş şəxsin əksər hallarda azyaşlı və yetkinlik yaşına çatmayan olması ilə əlaqədar olaraq ekspert-psixoloq bu metoddan daha çox istifdə edir. Psixoloji söhbət-müsahibə metodunun əsas funksiyası müayinə olunan yetkinlik yaşına çatmayan zərərçəkmişlə səmimi və inamlı təmas yaratmaq, cinayət işi materiallarında rast gəlinməyən bioqrafik məlumatları əldə etmək, baş vermiş cinayət hadisəsi haqqında zərərçəkmişin subyektiv təəssüratlarını və fikirlərini dinləmək, məhkəmə-istintaq orqanlarının qoyduğu sualları aydınlaşdırmaq və iş üçün əhəmiyyətli olan halları üzə çıxarmaq məqsədilə zərərçəkmişin qavramaq və anlamaq qabiliyyətini, cinsi həyatın bioloji, sosial və psixoloji mənasını anlamaq iqtidarında olub-olmamasını müəyyən etməkdir.

Həmçinin ekspert-psixoloq modelləşdirmə metodundan da istifadə etməklə, yetkinlik yaşına çatmayan zərərçəkmişə müxtəlif situasiyalardan nümunələr göstərməklə onun həmin hadisəyə olan reaksiya və davranış aktlarını yazılı şəkildə qeydlər aparmalıdır.

Bioqrafik metod zamanı isə ekspert-psixoloq müayinə olunan-zərərçəkmişin həyat yoluna aid faktlar hadisələr və müxtəlif sənədlər əsasında, psixoloji təhlili yolu ilə onun şəxsiyyətini öyrənməyə çalışır. Zərərçəkənin valideynləri, onun bacı və qardaşlarının, yaxın rəfiqələrinin, qonşularının və s. ifadələri əsasında cinsi inkişaf, cinsi tərbiyə və mədəniyyəti xüsusiyyətləri araşdırılır, məhkəmə-istintaq orqanlarını maraqlandıran dövr üçün müayinə olunanın psixi fəaliyyətinin və davranış aktlarının dinamikası öyrənilir. Ekspert-psixoloq digər ekspertiza rəylərinə, ilk növbədə məhkəmə-tibbi və məhkəmə-psixtiatrik ekspertizaları rəylərinin nəticələrinə diqqət yetirməli, yeri gəldikcə onlara istinad etməlidir.

Cinsi cinayətlərlə bağlı ekspert tədqiqatı zamanı istifadə olunan metodlar içərisində psixometrik metodlar xüsusi yer tutur. Zərərçəkmişin intellektual inkişaf səviyyəsini ölçmək üçün Raven testindən, bəzi hallarda isə Veksler testindən, idrak proseslərinin tədqiqi üçün isə obrazlı hafizə

testindən, 10 söz, piktoqramma, əşya və ya hadisələrin təsnifatı, anlayışların seçilməsi və müqayisəsi, artıq olan əşyaların müəyyən edilməsi, analogiya, Burdona görə sınaq, Şulte cədvəlindən və digər psixodiaqnostik üsullardan istifadə olunması məqsədə uyğundur.

**4.Məhkəmə-psixolioji ekspertizasının keçirilməsi**

Aşağıdakı nümunədə cinsi cinayət işi üzrə yetkinlik yaşına çatmayan zərərçəkmişin məhkəmə-psixoloji ekspertizası xüsusi bir maraq doğurur.

Ekspert-psixoloq qarşısında yetkinlik yaşına çatmayan zərərçəkmiş S. ilə əlaqədar məhkəmə-istintaq orqanlarının qoymuş olduğu sualların (1.Zərərçəkmiş şəxs S. hansı fərdi-psixi xüsusiyyətlərə malikdir? 2.Zərərçəkmiş şəxs S. özündən uydurmağa meyllidirmi? 3.Zərərçəkmiş şəxs S. yaş xüsusiyyətləri və intellektual inkişafı nəzərə alınmaqla onunla edilən hərəkətlərin xarakter və mənasını anlaya bilərdimi? 4.Zərərçəkmiş şəxs S. psixi, yaş və fərdi-psixi xüsusiyyətlərindən, intellektual inkişafı və emosional halından asılı olaraq müqavimət göstərmək qabiliyyətinə malik olmuşdurmu? 5.Zərərçəkmiş şəxs S. əqli inkişafında psixi xəstəliyi ilə əlaqədar olmayan gerilik əlamətləri varmı?) aydınlaşdırılması məqsədi ilə cinayət işi materialları psixoloji cəhətdən təhlil edilmiş və S-nın işlə bağlı mühüm əhəmiyyət kəsb edən psixi proseslərini və fərdi-psixi xüsusiyyətlərini üzə çıxarmaq məqsədi ilə aşağıdakı metodikalardan- psixoloji söhbət-müsahibə, müşahidə, bioqrafik (anamnestik) metod, Lüşer testi, “Dördüncü artıqdır”, obraza görə hafizə, On söz, Raven testi, Ayzenkin şəxsiyyət sorğusu, Xarakterin aksentuasiyası testi, Anlayışların müqayisəsi və təsnifatı, Əsas əlamətlərin müəyyən edilməsi, Tematik Apperseptiv Testi- istifadə olunmuşdur.

Müayinə olunan yetkinlik yaşına çatmayan S. 14.10.2005-ci il tarixdə anadan olmuşdur. Ekspert-psixoloq ekspertiza zamanı psixoloji söhbət - müsahibə metodundan istifadə etmiş, bu zaman S. özü və ailəsi haqqında məlumat verərək bildirmişdir ki, *“...mənim 16 yaşım var. Ad günüm oktyabrın on dördüdür, 2005-ci ildə anadan olmuşam. Atamın adı V.dır. Əqli geriliyi var. Anam da var, məni atıb. Qardaşım var. Məktəbdə 9-cu sinifdə oxuyuram. Məktəbə demək olar ki, getməmişəm...”*. Həmçinin müayinə olunan yetkinlik yaşına çatmayan S. ekspert-psixoloqla çətinlik çəkmədən ünsiyyətə girmiş, ekspertiza zamanı ona verilən tapşırıqları əqli imkanları daxilində yerinə yetirməyə çalışmış və ekspert-psixoloqun sualına əsasən aybaşı (menstruasiya) prosesinin onda 11 yaşında başladığını bildirmişdir.

Müayinə olunan yetkinlik yaşına çatmayan S. ekspertiza zamanı baş vermiş hadisə barəsində aşağıdakı informasiyaları göstərmişdir:

*“...istintaqa verdiyim ifadəmi təsdiq edirəm. Birinci dəfə hadisə olanda 5-ci sinifdə oxuyurdum. Əmim A. məni evlərinə çağırdı, dedi ki, səninlə işim var. Dedi paltarını soyun, dedim niyə? Paltarımı çıxartdı, başladı ... . Səhərdən axşama qədər ..., bibim işdə idi, evdə deyildi. Sonra mənimlə hər gün əlaqədə olurdu. Məni qorxutmuşdu, heç kimə demirdim. Mənim də müəllimən psixoloq idi, axırda ona dedim, o da internetə qoydu, onun sayəsində qurtuldum, deməsəydim yenə bunlar başıma gələcəkdi. Hər dəfə deyirdim istəmirəm, amma o evlərinə aparırdı ... . Arxadan da, qabaqdan da ... . Axırıncı dəfə aprelin 6-sı olub. Birinci dəfə məndən nə qədər qan gəldi. Məni qorxudurdu ki, səni gecə gəlib öldürəcəyəm. Mən də qorxmuşdum. Atama deyə bilmirdim, utanırdım, həm də atam məni döyərdi. Anam məni övladlıqdan silib, qardaşlarımı öpüb-qucaqlayırdı, amma məni qucaqlamırdı, işlədirdi, ac saxlayırdı. Axırda anama dedim, dedi əcəb olub, nə olub yaxşı olub, onsuz da mən səni silmişəm, sənin kimi övlad istəmirəm. Bıçağı ocaqda qızdırdı, qıp-qırmızı etdi, basdı, izi də qalıb (izi göstərir ekspert-psixoloqa). İkinci dəfə hadisə olanda demişdim, onda anam da döydü, atam da, qardaşlarım da, bibim də - hamı məni döydü, onun tərəfini tutdular. Mənə heç kim inanmadı. Amma mən axırda sübut elədim. Müəllimə soruşdu ki, niyə bir ay, iki ay dərsə gəlmirsən. Dedim ağrılarım var. Soruşdu niyə, mən də danışdım, müəllimə səsimi yazdı. Sonra bunu biləndən sonra uşaqlar da mənə yaxın gəlmirdi, heç kim mənimlə oynamırdı. Mən də utanırdım. Əmim nə eləmişdisə, hamısını polisə dedim. İndi onu tutublar, aprelin 6-sından türmədədir. Mənə qarşı o hərəkətləri Ş., M., V., E. ediblər. E. sinif yoldaşımdır, həm də qohumdur, qalanları qonşumuzdur. E-nin yaşı çatmadığına görə onu tutmayıblar. Onlar hamısı bir yerə toplananda edirdilər. Bibimgilin evində yığışmışdılar. Məni ora Ş. çağırmışdı. Ş.nın ad günü idi, onları qonaq çağırmışdı, əvvəl Ş. başladı, sonra onlar da elədi. Mən bilmirdim belə olacaq. Bir dəfə olmayıb. Bir dəfə səhərəcən məni qoymayıblar evə getməyə, hamısı edirdi. Ş. içimə qayçı da salıb, şam da. Mən istəmirdim başıma belə şeylər gəlsin. Zorla edirdilər, məni məcbur edirdilər (ağlayır)...”*

Psixoloji söhbət - müsahibə metodu zamanı ekspert-psixoloqun sualına cavab olaraq müayinə olunan S. cavab olaraq bildirmişdir ki,

*“...Dayım qızının yoldaşı var, dayım qızı mənə deyib ki, səhərəcən olsa hamilə olarsan, ya da içinə boşaltsa. İçimə boşaltmırdı. Ağrıdırdı, mən də şal bağlamışdım, uşaqlar ələ salırdı ki, hamiləsən. Amma deyildim.*

*Hamilə olmağını adam qarnı şişəndə bilir, mənim qarnım şişməmişdi. Mənim yaşımda cinsi əlaqədə olmaq olmaz. Çünki o yaşım deyil.”*

Baş vermiş hadisə ilə əlaqədar aparılmış istintaq zamanı təqsirləndirilən şəxs qismində dindirilmiş A. istintaqa vermiş olduğu ifadəsində S.-nın anasının əxlaqsız həyat tərzi keçirdiyini, onunla öz xoşu ilə cinsi əlaqədə olduğunu, lakin S. ilə “nə öz xoşu ilə, nə də məcburi şəkildə cinsi əlaqədə olmadığını” bildirmiş, həmçinin istintaq zamanı şahid qismində dindirilmiş Ş., M., V., E. isə S.-nın onlara böhtan atdığını, onunla heç vaxt cinsi əlaqədə olmadıqlarını bildirmişlər.

Lakin məhkəmə-tibbi ekspertizası rəyinə əsasən S.-nın bədən səthində heç bir xəsarət izi aşkar olunmamışdır, qızlıq pərdəsinin tamlığı pozulmuşdur, müddəti müayinədən iki həftə əvvəldən daha artıqdır, onunla arxa keçəcək vasitəsilə cinsi əlaqədə olma əlamətləri aşkar edilmişdir, süd vəzilərinin ölçülərinin kiçik olması, ikincili cinsiyyət əlamətlərinin zəif nəzərə çarpması onu deməyə əsas verir ki, S. tam cinsi yetkinlik mərhələsinə çatmamışdır.

Eksperimental tədqiqatın nəticələri göstərir ki, müayinə olunan yetkinlik yaşına çatmayan S.-nın dünyagörüşü aşağı səviyyəlidir və bilikləri güzəran təcrübəsinə əsaslanır. S. pedaqoji baxımsızlığı ilə əlaqədar oxu və yazı vərdişlərinə yiyələnməmişdir, sadə riyazi əməlləri yerinə yetirə bilmir. S.-nın əqli inkişafında psixi xəstəliklə əlaqədar olmayan gerilik əlamətləri müəyyən olunur (Raven testi). S. kifayət qədər lüğət ehtiyatına malik olmaqla, öz fikirlərini başqalarına çatdıra bilir. S.-nın ixtiyari yaddasaxlaması normadan aşağıdır (10 söz, Obraza görə hafizə). S. ona təqdim olunmuş anlayışların müqayisəsi və təsnifatı zamanı, eləcə də onların əsas əlamətlərini müəyyən edərkən, əsasən ikinci dərəcəli əlamətlərdən çıxış edir (Dördüncü artıqdır, Əsas əlamətlərin müəyyən edilməsi, Anlayışların təsnifatı və müqayisəsi).

Həmçinin Ayzenk şəxsiyyət sorğusunun nəticələrinin təhlili göstərir ki, S. fərdi-psixi xüsusiyyətlərinə görə daha çox ekstravertə (insanın psixi fəaliyyətinin xarici aləmə yönəlməsi) yaxın olmaqla, onun sinir sisteminin tipi qüvvətlidir. Emosional cəhətdən labilliyi (dəyişkənliyi) müşahidə olunmur. S.-nın fərdi-psixi xüsusiyyətlərində özündən uydurmağa meyllilik əlamətləri müəyyən olunmur. Onun fərdi-psixi xüsusiyyətlərində itaətkarlıq, qətiyyətsizlik, cəsarətsizlik və sadəlövhlük kimi əlamətlər üstünlük təşkil edir (Ayzenkin şəxsiyyət sorğusu, Tematik Apperseptiv Testi). Lüşer testinin nəticələrinə əsasən S. hamının rəğbətini qazanmaq, ətrafdakılara xoş təəssürat bəxş etmək istəyir, kiçik diqqətsizlikdən əhval-ruhiyyəsi pozulur (Lüşer testi).

Müayinə olunan yetkinlik yaşına çatmayan S.-nın istintaq zamanı verdiyi ifadələrinin psixoloji təhlilinə və aparılmış eksperimental tədqiqata əsasən belə qənaətə gəlmək olur ki, S. kişi ilə qadın arasındakı seksual münasibətlər, intim həyata hansı yaş dövründən başlamağın cəmiyyətdə qəbul edilmiş normaları, cinsi əlaqənin nəticələri, uşaqların necə doğulması, hamiləlik və ondan qorunmanın yolları və s. haqqında müəyyən məlumata sahib olsa da həmin məsələlərin mahiyyətini tam dərk etmir.

Xarakterin aksentuasiyası testinin nəticəsinə görə S.-də astenik, psixoastenik, senzitiv xarakter xüsusiyyətləri üstünlük təşkil etmiş və onun fərdi-psixoloji xüsusiyyətlərində qorxaqlıq, tabeçilik, qeyri-müstəqillik, emosional qeyri-sabitlik, stressə dözümsüzlük, təlqinə və təsir altına tez düşmək, insanlara tez inanmaq kimi əlamətlərin formalaşmasına səbəb olmuşdur. Baş vermiş cinayət hadisəsi zamanı da S. təqsirləndirilən şəxslərə tabe olmaq, onların tələblərini yerinə yetirmək, onun qorxması, özünü itirməsi fəal müqavimət göstərməsinə və düzgün davranış variantlarını adekvat seçməsinə imkan verməmişdir.

Ekspert tədqiqatı nəticələri göstərir ki, yetkinlik yaşına çatmayan S. əqli və psixi inkişafına, fərdi-psixi xüsusiyyətlərinə görə ona qarşı edilən seksual hərəkətlərin xarakterini və mahiyyətini dərk etmək və həmin hərəkətlərə qarşı müqavimət göstərmək qabiliyyətinə malik olmamışdır.

**5.Nəticə**

Mövcud ədəbiyyatların təhlili və aparılmış məhkəmə-psixoloji ekspertizası təcrübəsi göstərir ki, cinsi cinayətlər zamanı yetkinlik yaşına çatmayan zərərçəkmişin hadisəni dərk etmək, onun sosial mənasını, şəraitini düzgün qiymətləndirmək və iradəsindən, psixi və fiziki halından asılı olaraq müqavimət göstərmək qabiliyyəti bütövlükdə köməksiz vəziyyəti təşkil edir. Qeyd etmək lazımdır ki, zərərçəkmişin məhkəmə-psixoloji ekspertizası zamanı təqsirləndirilən şəxs tərəfindən ona qarşı edilən hərəkət və əməllərin xarakter və mənasını dərk edib-etməməsini müəyyən etməklə yanaşı, həmdə onun şüurlu halda müqavimət göstərmək qabiliyyəti tədqiq edilir.

Problemə müasir yanaşmaların təhlili göstərir ki, cinsi zorakılığa məruz qalmış yetkinlik yaşına çatmayanların məhkəmə-psixoloji ekspertizası zamanı onların əqli inkişaf səviyyəsi və idrak proseslərinin cərəyan etməsinin fərdi-psixoloji xüsusiyyətlərindən asılı olaraq onların köməksiz halı eksperimental şəraitdə müqayisəli şəkildə tədqiq edilməklə müəyyən etmək mümkündür. Ekspert-psixoloq təcrübəsi məhkəmə-psixoloji ekspertizası zamanı müayinə olunan yetkinlik yaşına çatmayanlarla psixodiaqnostik metodlar keçirilərək onların anamnestik məlumatları, ailə tipləri, psixi inkişaflarının dinamikası, xarakter xüsusiyyətləri, psixoseksual inkişafları ilə

əlaqədar məsələlər öyrənilməsi, əqli inkişafları, maraq və vərdişləri, davranışlarının sabit motivlərinin tədqiqi, cinayət işinin materiallarının təhlili əsasında zərərçəkmişlərin hadisə zamanı davranışlarının retrospektiv təhlili, əlavə olaraq zərərçəkmişlərin baş vermiş hadisəyə münasibətləri və həmin hadisənin sosial-psixoloji, bioloji (fizioloji) və əxlaqi-etik tərəfləri, hadisədən sonra onların baş verənlərə emosional reaksiyalarının dərinlikləri müəyyənləşdirilmişdir.

## ƏDƏBİYYAT

1. Əliyev, B. H. (1996). *Cinayət və mülki prosesdə məhkəmə psixoloji ekspertazası problemləri*. Bakı.
2. Bayramov, Ə. S., & Əliyev, B. H. (2012). *Hüquq Psixologiyası.* Bakı.
3. Şabanov, S. F. (2002). *Cinsi cinayətlərə dair işlər üzrə məhkəmə-psixoloji ekspertizasının təşkili və keçirilməsi (metodik vəsait).* Bakı.
4. Коченов, М. М. (1988). *Введение в судебно-психологическую экспертизу.* М.
5. Нагаев, В. В. (2000). *Основы судебно-психологической экспертизы.* М.
6. Игнатов, А. Н. (1974). *Квалификация половых преступлений.* М.

## Судебно-психологическая экспертиза несовершеннолетних, подвергшихся сексуальному насилию

**Нарын Абилова***

**Абстракт.** В статье рассматриваются теоретико-методологические вопросы судебно-психологической экспертизы преступлений на сексуальной почве. Проанализирована научная литература по категориям *«понимание характера»* и *«понимание смысла»*, а также способность потерпевшего к сопротивлению и беспомощность. Также есть пример судебно-психологической экспертизы сексуального преступления.

**Ключевые слова:** несовершеннолетний, сексуальное насилие, потерпевший, судебно-психологическая экспертиза

* Докторант Кафедры Психологии Бакинского Государственного Университета; Баку, Азербайджан
E-mail: abilovanarin777@gmail.com
https://orcid.org/0000-0002-5997-3814
**Цитировать статью:** Абилова, Н. [2022]. Судебно-психологическая экспертиза несовершеннолетних, подвергшихся сексуальному насилию. *Журнал «Metafizika»*, 5(2), c.62-73.

***История статьи:***
*Статья поступила в редакцию: 31.03.2022*
*Отправлена на доработку: 11.04.2022*
*Принята для печати: 03.06.2022*

# Forensic psychological examination of minors who have been sexually abused

**Narin Abilova*** 

**Abstract.** The article examines the theoretical and methodological issues of forensic psychological examination of sexual crimes. The scientific literature on the categories of *“understanding the character”* and *“understanding the meaning”*, the ability of the victim to resist and the helpless situation analyzed. There is also an example of a forensic psychological examination of a sex crime.

**Keywords**: juvenile, sexual violence, victims, forensic psychological examination

## REFERENCES

1. Aliev, B. H. (1996). *Cinayet ve mulki prosesde mehkeme psixoloji ekspertazasi problemleri.* Baku.
2. Bayramov, A. S., & Aliev, B. H. (2012). *Huquq Psikhologiyasi.* Baku.
3. Shabanov, S. F. (2002). *Cinsi cinayetlere dair ishler uzre mehkeme-psixoloji ekspertizasinin teshkili ve kechirilmesi (metodik vesait).* Baku.
4. Kochenov, M. M. (1988). *Vvedeniye v sudebno-psixologicheskyyu ekspertizu.* Moscow.
5. Nagayev, V. V. (2000). *Osnovy sudebno-psixologicheskoy ekspertizy.* Moscow.
6. Ignatov, A. N. (1974). *Kvalifikatsiya polovykh prestupleniy.* Moscow.

* Ph.D student of the Department of Psychology of Baku State University; Baku, Azerbaijan
E-mail: abilovanarin777@gmail.com
https://orcid.org/0000-0002-5997-3814

**To cite this article:** Abilova, N. [2022] Forensic psychological examination of minors who have been sexually abused. *“Metafizika” journal, 5*(2), pp.62-73.

***Article history:***
*Received: 31.03.2022*
*Accepted: 03.06.2022*